

Vaqif YUSİFLİ

# HAMININ SEVİMLİSİ İDİ

*(“Sənət fədailəri” silsiləsindən)*

**Sənət aləmində hər kəsin öz taleyi, öz bəxti, öz iqbalı var. Hərə öz taleyini yaşayır, öz bəxtinə güvənir, öz iqbalını gözləyir: dahilik iddiasında olanlar da, bütün həyatını, hətta şəxsi səadətini sənətə qurban verənlər də, “orta temperatur”la yaşayıb-yaradanlar da. Fəqət çox amansızdır sənətin qanunları.**

Cəfər Cabbarlının bir pyesində deyildiyi kimi, buraya gələnlər zəhərli gülüşləri, acı töhmətləri, böhtanları qəbul etməli, özünü pərvanələr kimi bu sənət atəşgahının alovlu bağrına atmalıdır. Burada gözlədiyin həyatı görə bilməyəcəksən. Oqtay Eloğlunun dilindən qopub bu sözlər. Və sevdiyi Firəngizə deyir bu sözləri... Onu sənətin ilk baxışdan cazibəli, amma maddi, mənəvi məhrumiyyətlərlə dolu qoynundan uzaqlaşdırmaq istəyir. Fəqət səhnə, teatr elə bir tilsim, elə bir sehrdir ki, onun cazibəsindən bəlkə də ömür boyu xilas ola bilməyəcəksən.

Taleyini səhnədən ayrı düşünməyən, teatrı bir məbəd bilib ona tapınan aktyorlardan biri də Telman Adıgözəlov idi. Ola bilsin, hər tamaşaçının öz sevimli aktyoru olsun, amma Telman hamının sevimlisi idi. Çox zaman kiçik, tamaşada o qədər də nəzərə çarpmayan “ikinci dərəcəli” rollar oynayırdı, amma sənətinə pərəstiş etdiyi İsmayıl Osmanlı kimi o da xırda rolların əvəzsiz ifaçısıydı. Rolun böyüyü, kiçiyi yoxdur, aktyorun istedadlısı, istedadsızı var. O qədər böyük rolların xırdalaşdığını, kiçik rolların isə tamaşanın bəzəyinə çevrildiyini görmüşük ki...

Telmanın əsli, kökü Ordubadın Vənənd kəndindəndir. Ailəsini 37-ci ildə Qazaxıstana sürgün eləmişdilər. Sürgün müddəti qurtarandan sonra, əllinci illərin əvvəllərində Azərbaycana qayıtdılar. Stalinin ölümü ona düşdü, 1953-cü ildə bu gözəl dünyaya təşrif gətirdi. Bir müddət Balakəndə yaşadılar, sonra Bakıya köçdülər. 7 nömrəli məktəbdə oxuyurdu, bir gün dərsdən qaçmışdı. Yolda bir kişi onu saxlayır. Deyir ki, sənin sifətin xoşuma gəlir, sabah gəl məktəblilərin yolka şənliyinə. Bu, rejissor Nazim Zeynalov idi. İlk çəkiliş o yolka şənliyində oldu və Telman o gündən teatra meyl etdi.

Bu yazıda Telman Adıgözəlovun sənət yolunu, oynadığı rolları sadalamaq və aktyor səciyyəsi haqqında söz açmaq fikrində deyiləm. Aramızdan vaxtsız getmiş, cəmi 57 il ömür sürmüş bir sənətçinin-xalqın sevimlisinə çevrilən bir aktyorun dilindən eşitdiklərimi oxuculara çatdırmaq istəyirəm. O zaman-sağlığında onunla bir görüşüm olmuşdu, o görüşdən sonra “Panorama” qəzetində (90-cı illərin sonları-2000-ci illərin əvvəlləri ən maraqlı qəzetlərdən biri idi) bir müsahibə çap etdirdim. Amma Telmanın bütün dedikləri orada əks olunmamışdı. İndi istəyirəm o çatışmazlığı aradan qaldırım.

“Allah məni Telman Adıgözəlov timsalında atıb bu dünyaya, mən qabaqcadan yazılan taleyə inanıram. Görünür, aktyor olmalıydım və oldum. Mənim naturam belədir. İstər həyatda olsun, istər səhnədə, xasiyyət, xarakter şəxsiyyətin özündən yaranır. Sənət, peşə adamları aldatmasın, yəni mən aktyoram - bu cür, bu xasiyyətdə görünməliyəm, elə deyil? Hansı sənətdə, hansı peşədə olursansa ol, sən özünü ifadə eləməlisən. Qurban olduğum Allah mənə bu sifəti verib, mən bu sifəti dəyişə bilmərəm. Kloun deyiləm ki? Səhnədə min sifətə düşürsən, amma əsl sifətini, xarakterini dəyişmirsən.

Mənə komik aktyor deyirlər, amma mən özümü daha çox tragikomik meylli aktyor hesab edirəm. Həyatda faciə ilə nəşə, qəmlə sevinc yanaşı yaşayır. Bunu qövsi-qüzehə bənzətmək olar, müxtəlif rənglər bir-birinə qarışır. Məsələn, Çarli Çaplin sənətində gülüşün içində göz yaşları görünmürmü? Bəzən sırf komik bir aktyor müsahibə verib deyir ki, ən böyük arzum Hamleti, Otellonu oynamaqdır. Təbii ki, o komik aktyorda istedad varsa, arzusuna çatacaq. İnnokenti Smoktunovski Hamleti oynadı, özü də çox əla. Amma onu komik rolda da görmüşük. Mənim fikrimcə, faciəvi rolları oynamaq üçün xüsusi istedadın olmalıdır. Teatr tarixinə nəzər yetirək. Vaxtilə bizim aktyorlar (Abbas Mirzə, Ülvi Rəcəb, Ələsgər Ələkbərov) Şekspirin nəhəng obrazlarını necə məharətlə oynayırdılar. Hətta SSRİ miqyasında onlara həsədlə baxırdılar. Amma mən Telman Adıgözəlovda heç vaxt Kral Lir, Otello, Hamlet olmaq arzusu yaranmayıb. Çünki sənətdə xəyallara qapılmağı sevmirəm.

Əgər Telman Adıgözəlov sizin nəzərinizdə bir aktyor kimi hüsn-rəğbət qazanmışsa, bunun bir səbəbi də rejissorlardır. Rejissorları memarlarla müqayisə etmək olar. Dünyada ustad rejissorların adları ilə tanınan teatrlar və məktəblər var. Bizdə də belə nəhəng rejissorlar olub-Adil İsgəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov. İndi heç bir əmmasız deyə bilərik: Akademik teatrın Adil İsgəndərov, Mehdi Məmmədov və ya Tofiq Kazımov dövrləri. Ancaq bu gün üçün hansı rejissorunsa adını çəkə bilmərik ki, deyək, indi onun dövrüdür. Hərçənd ki, Azərbaycanda bu saatın özündə çox istedadlı rejissorlar var. Şəxsən mənim xoşladığım, zövqümə yaxın iki rejissorun adını çəkmək istəyirəm. Birincisi-Vaqif İbrahimoğludur. İlk dəfə o, mənim aktyor xarakterimin yönünü düzgün axara yönəltdi. Axı, mən bir müddət “Tədris” teatrında oynamışam. İkincisi - Şərif Qurbanəliyevdir. O, gözəl rejissor Ramiz Mirzəyevdən çox şey öyrənib. Amma özünəməxsusdur, hələ bir aktyorluğu da var. Mən Masallıda, Təklə kəndində, bir toyda qolumu sındırmışdım. Ona görə Əli Əmirlinin “Bala-başa bəla” televiziya tamaşasında çəkilə bilmədim. Həmin o kiçik, epizodik rolu Şərif özü oynadı, necə də gözəl alındı. Qeyd edim ki, “Yarımştat” tamaşasında quruluşçu rejissor da Şərifdir. Mən bu tamaşada Zaman rolunu oynayıram. Zaman talış ləhcəsində danışır, ssenari müəllifi və rejissor belə məsləhət gördülər. Mən də o ləhcədə danışmaq üçün talış dostlarımdan “dərs” aldım. Mən hər hansı bir tamaşada ləhcə ilə danışmağa pis baxmıram. “Bəxt üzüyü” filmində Valeh Kərimovun Moşunun dililə Qazax ləhcəsində, “Həm ziyarət, həm ticarət” filmində Hacı İsmayılovun Şəki ləhcəsində danışması yerinə düşür. Amma elə tamaşalar var ki, aktyor bunu bacarmır, süni alınır. Məndə ləhcələrə xüsusi bir meyl olub, hansı rayonda və kənddə olsam, dərhal danışanlara qulaq kəsilirəm, yığıram özümçün. Daxilimdə ləhcələr toplusu yaranıb.

Ümumiyyətlə, aktyor hərtərəfli olmalıdır, yəni təkcə obraza girmək, onu “özününküləşdirmək” azdır, obrazın hansı peşəyə mənsubiyyəti, o peşədən irəli gələn xüsusiyyətlər onda təcəssüm etməlidir. Ən başlıcası isə, aktyor yüksək mütaliə mədəniyyətinə malik olmalıdır. Mən tələbəlik illərindən bu günə kimi mütaliədən yorulmuram. Ən çox oxuduğum Hüseyn Cavidin əsərləridir. Onun sənətində elə möcüzət var ki, bunu dillə deyə bilmərəm. Oxuyursan onu, sənin qarşında gözəl bir meşə, bu meşəni bürüyən duman, quşların cəh-cəhi canlanır. Şekspir, Şarl Bodler, Pol Eluar, S.Vurğun, V.Səmədoğlu, R.Rövşən də ən çox sevdiyim şairlərdir. Rüstəm Behrudini, Paşa Qəlbinuru da bura əlavə edə bilərəm.

İndiyə kimi on-on iki filmdə çəkilmişəm, hələ “Mozalan”ları demirəm. Amma çəkildiyim filmlərdə oynadığım rolları sadəcə məşq hesab edirəm. Əsl rolumu, o rolu mənə bəxş edəcək rejissoru gözləyirəm.

Mən teatr adamıyam və Azərbaycan teatrının hər bir uğuruna hədsiz dərəcədə sevinirəm. Xüsusilə, teatrımızın xarici səfərləri onun şöhrətini daha da artırır. Amma bir müddət Azərbaycan teatrı az qala böhran vəziyyətinə düşmüşdü.

Hər dövrün, hər mərhələnin öz inkişaf xüsusiyyətləri olub.Adil İsgəndərovun vaxtında tear monumentalizm dövrünü yaşadı: klassik repertuar, əsasən klassik aktyorlar. İndi başqa dövrdür. Arada çox qüvvətli bir aktyor yetişdi - Səməndər Rzayev. O, özü də bilmədən sanki iki aktyor nəslini birləşdirdi. Sonra 7 il teatr “dincə qoyuldu”. Aktyorların yaşı artdı, beyinlərin orucu başlandı. Amma bu, bir tərəfdən bizi bir-bir ələkdən keçirdi. İndi hamı hiss edir ki, səhnəyə böyük həyat yükü çıxmalıdır. Teatra yeni nəsil gəlir, amma hələ ki, onların içində fərqlənənləri barmaqla sayılacaq qədərdir.



Aktyor bütün zamanlarda xalqın nəzər-diqqətində olub. Çoxları elə bilir ki, biz xoşbəxtik, yaxşı dolanırıq. Amma elə deyil. Gəlin Dram teatrında aktyorların maaş cədvəlinə baxın. Ağır zəmanədir. Amma qurban olduğum Allah hələ bu vaxta kimi məni heç kəsə möhtac eləməyib. Əlinin papağının Vəlinin, Vəlinin papağının Əlinin başına qoyulduğu belə dövrdə ailə saxlamaq çox çətindir, amma iki uşaq atası Telman naçar qalmır, radio, televiziya verilişləri, kino, lap elə toyda tamada... Hələ çoxlarının da işinə yarıyıram. Məni görən kimi üzlərdə təbəssüm yaranır, tilsimli qapılar açılır.

Əlbəttə, keçmişə bax, dünənə boylan, gələcək üçün özünü hazırla. Keçmişim olmasaydı, bu günə də çıxmazdım. Deməzdim ki, bu da mən-Xalq artisti Telman Adıgözəlov...

Heyif, Telman Adıgözəlov tez köçdü dünyadan. Belə sənət adamı isə hələm-hələm yaranmır. İstedad təkrarolunmazdır və biz bunu Telman Adıgözəlovun simasında gördük. Min rəhmət!



